# Gerçəkləşmiş sənət axtarışlarının qısa xülasəsi

1989-cu ildə H.Atakişiyevin rəhbərliyilə Azərbaycan Dövlət Gənclər Teatrı açılarkən teatr ilk tamaşası ilə özü haqqında ciddi bəyanatlar verdi. Teatr bu münasibətlə yazıçı Y.Səmədoğlunun eyniadlı romanının motivləri əsasında "Qətl günü" tamaşasını hazırlamışdı. H.Atakişiyev bu tamaşada da meydan teatrının oyun prinsiplərinə sadiq qaldığını təsdiqləyirdi. Bu tamaşadan həməncə duyulurdu ki, Gənclər teatrı siyasi teatr kimi formalaşmağa meyllidir. Rejissor "Qətl günü" tamaşasına maraqlı bir aktyor kollektivi toplamışdı, Milli Dram teatrının, Sumqayıt Dram teatrının, Kukla teatrının sənətçilərini birgə işə cəlb etmişdi. H.Atakişiyev bu tamaşa ilə qeyri-rəsmi şəkildə bəyan edirdi ki, o, Gənclər teatrında Şəki Dram teatrının ənənələrini, konseptual tendensiyalarını davam və inkişaf etdirəcək. Hərçənd 90-cı illərdə teatrın iqtisadi durumu həddən artıq zəiflədiyindən H.Atakişiyevin konseptual teatrından heç bir əsər-əlamət qalmadı. Bu çağlarda Gənclər teatrında seyrçi uğrunda mübarizə məsələsi aktuallaşdığından H.Atakişiyevin teatr axtarışları, teatr eksperimentləri faktiki olaraq ikinci, bəlkə daha doğru səslənər desək, axırıncı plana keçdi. Teatrın repertuarı kasadlaşdı, klassik pyeslərin səhnə təcəssümü, həm kasıblıq, həm də məsuliyyətsizlik üzündən yarıtmaz hala düşdü. Teatrı birtəhər 90-cı illərin çətin dövranı kontekstində yaşatmaqdan ötrü H.Atakişiyev ən müxtəlif vasitələrə əl atdı: bəzən isə hətta teatrın foyesində restoran və teatr başlanğıclarını bir-birinə calamaq üçün çabalar yapdı. Lakin teatr heç cürə kütləviləşmirdi ki, kütləviləşmirdi. Teatra tamaşaçı axını yox idi. Odur ki, bir çox aktyorlar teatrı tezliklə tərk edib gedirdilər. H.Atakişiyev onları yeni gənc sənətçilərlə əvəz etməli olurdu. Təbii ki, bu zaman diqqət, ilk növbədə, professionalizmə, professional vərdişlərin əxz edilməsinə yönəldilirdi. Busa Gənclər teatrının və onun bədii rəhbəri H.Atakişiyevin aktiv surətdə teatr axtarışları ilə məşğul olmasına, yeni ifadə vasitələri arayıb tapmasına əngəl törədirdi, teatrın sənətkarlıq baxımından inkişafını ləngidirdi. Təsadüfi deyil ki, sosial-iqtisadi vəziyyətə, daim yüksək estetik tələblərin səviyyəsində dayanmağa dözməyib teatr 90-cı illərin ikinci yarısından premyeraçılığa yuvarlandı, tamaşaları öz repertuarında tez-tez dəyişməyə başladı. Amma bununla yanaşı H.Atakişiyev hər vəchlə çalışırdı ki, teatrda hər tamaşa sadəcə olaraq növbəti işə çevrilməsin, Azərbaycanın sənət aləmi tərəfindən bir hadisə kimi qavranılsın. Ona görə də H.Atakişiyev Gənclər teatrına ard-arda yeni dramaturqları, yeni aktyor və rejissorları cəlb edirdi. Hətta teatrın bədii rəhbəri yeni tamaşaların yaranması prosesində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələrindən bəhrələnməkdən də çəkinmirdi. Bu zaman o yalnız bir məqsəd güdürdü: teatrda yaradıcılıq işini yeni qüvvələrin hesabına aktivləşdirmək. Gənclər teatrında H.Atakişiyev mütəmadi surətdə Azərbaycanın bir tanınan aktyorunu o biri ilə əvəzləyib teatra marağı nəyin bahasına olursa olsun saxlamaq istəyirdi. Təsadüfi deyil ki, 90-cı illərin müxtəlif kəsimlərində İlham Namiq Kamal, Afaq Bəşir qızı, Füzuli Hüseynov, Abbas Qəhrəmanov, Ramiz Əzizbəyli kimi aktyorlar, Əli Əmirli, Rəhman Əlizadə, Firuz Mustafa, Elçin Hüseynbəyli və s. bu kimi pyes yazarları, Həsən Əbluc, Əlyar Məmmədov kimi rejissorlar teatrın yaradıcılıq prosesinin iştirakçıları olmuşdular. Ara-sıra teatrın tamaşalarında Şəki Dram teatrının aktyor heyətinin nümayəndələri də görünürdülər. Bu faktları qədərincə sadalayıb tarixilik istiqamətində bir-birinin üstünə çinləmək mümkündür. Lakin həqiqət bundan ibarətdir ki, onların heç birinin teatr axtarışlarına birbaşa dəlaləti yox idi. Düzdür, Gənclər teatrında 1994-cü ildə rejissor Nəsir Sadıqzadənin quruluşunda "Avtobus" (S.Mrojek), 1996-cı ildə H.Atakişiyevin quruluşunda "Neron oynayır və ya İblisin komediyaları" (M.Xubai) tamaşaları haqqında haradasa demək olardı ki, onlarda teatr eksperimentləri cəhdi var. Amma bu tamaşaların heç biri H.Atakişiyevin 1997-ci ildə hazırladığı "Mühacirlər" tamaşası ilə müqayisəyə gəlmir. Əvvəla, onu söyləmək lazımdır ki, pyes çağdaş polyak dramaturgiyasının ən istedadlı nümayəndələrindən biri Slavomir Mrojekə məxsus idi. S.Mrojek isə absurd dramaturgiyasında müasir dalğanın təmsilçilərindən hesab olunurdu. Yəni H.Atakişiyevin seçiminin artıq özü onun çağdaş teatr dəblərinə yaxınlaşmaq meylindən xəbər verirdi. Lakin Gənclər teatrının bədii rəhbəri yalnız bununla kifayətlənməmişdi. Cəmi iki nəfərin iştirak etdiyi bu pyesi H.Atakişiyev tam eksperimental bir ruhda hazırlamışdı. O, seyrçilərin (onların maksimal sayı 40-50 ilə məhdudlaşırdı) hamısını səhnənin arxa planında əyləşdirmişdi. Tamaşaçıların qarşısında isə iri yaşayış binasının zirzəmisinin mənzərəsi açılırdı. Bu mənzərə səhnəni qapadan pərdəni tamamilə görünməz edirdi. S.Mrojekin mühacirləri (aktyorlar A.Məmmədov və Q.İsmayılov) məhz bu zirzəmidə yaşayır və öz problemlərini səmimicəsinə seyrçilərlə bölüşürdülər. Başlıcası bu idi ki, seyrçilər səhnə içində aktyorlarla birlikdə vahid bir orqanizmə çevrilmişdilər. Mühacirlərin mühacir olmağa və darısqal zirzəmi şəraitində yaşamağa məhkumluğu son dərəcə aktual səslənirdi və seyrçilərdə canlı reaksiya oyadırdı. Bu tamaşada quruluşçu rejissor və aktyorlar "zirzəmi" məkanını maksimal şəkildə mənimsəmişdilər. Hətta zirzəminin sadə çilçırağı belə oyun məkanının fiqurativ elementinə çevrilmişdi. Həqiqətən, bu tamaşa müasir teatr dəbinin tələbləri səviyyəsində dayanmışdı və Azərbaycanın teatr mühitində gedən sənət axtarışlarının mahiyyətini açıqlayırdı. Bu tamaşadan aydın olurdu ki, 90-cı illər teatrı daha çox lokallaşmağa, intimləşməyə cəhd göstərir. "Mühacirlər" tamaşasının eksperimental xarakterindən söz düşmüşkən qeyd etmək lazımdır ki, 90-cı illərdə keçirilən çoxsaylı festivallarla yanaşı 1995 və 1998-ci illərdə Bakı şəhərində müvafiq olaraq Birinci və İkinci Eksperimental Tamaşalar Festivalı keçirildi. Heç də təsadüfi deyildi ki, Birinci Eksperimental Tamaşalar Festivalında "Mühacirlər" tamaşasında iştirak edən iki aktyordan biri A.Məmmədov "kişi rollarının ən yaxşı ifaçısı" nominasiyası üzrə baş mükafata layiq görüldü.



*Emin ƏLİYEV*


Ədəbiyyat

1. Əlizadə M.Ə. Teatr: seyr və sehr; milli teatr prosesi problemləri. - B.: Elm, 1998.
2. Rəhimli İ.Ə. Dramaturgiya və teatr. - B.: Gənclik, 1982.
3. Rəhimli İ.Ə. Azərbaycan teatrının estetik prinsipləri: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələri üçün dərslik. - B.: Çaşıoğlu, 2004.
4. Talıbov A.A. Azərbaycan teatrının Yusif Sərracı // Vətən ocağı. - 1994. - 23 dekabr. - № 19 (019).
5. Talıbzadə A.A. Azərbaycan teatr tarixinin konseptual variantı // Azərbaycan. - 2002. - № 9.